Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

**F.Köçərli adına Respublika Uşaq Kitabxanası**



# Böyüklərin dünyasına uşaq məsumluğu ilə gülən yazıçı

Böyük ingilis yazıçısı Çarlz Dikkensin anadan olmasının 205 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

**Bakı - 2017**

**Tərtibçi:** **Təranə Hacıyeva**

**Redaktor:** **Səməd Məlikzadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**“Böyüklərin dünyasına uşaq məsumluğu ilə gülən yazıçı”** metodik vəsait / tərt.ed.: T.Hacıyeva; red. S.Məlikzadə; ixt. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası. - Bakı, 2017. - 18 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017**

## Tərtibçidən

Dünya ədəbiyyatının klassiklərindən sayılan Çarlz Dikkensin yaradıcılığı ingilis ədəbiyyatında realizmin zirvəsi hesab olunur. XIX əsr İngiltərə cəmiyyətinin həyatını bütün rəngarəngliyi ilə təsvir edən Çarlz Dikkensin şöhrəti ölümündən sonra nəinki azalmış, əksinə daha da artmışdır. Onun adı V. Şekspir, C. Bayron, F. Şiller, L. Tolstoy və digər dahilərlə bir cərgədə dayanır. Ç. Dikkens elə yazıçılardandır ki, onları mütaliə edərkən əsərlərindəki bənzərsiz, oxucunu daim həyəcanda saxlayan mühitdən ayrılaraq real aləmə qayıtmaq çox çətin olur.

Çarlz Dikkens dünya ədəbiyyatına "Pikvik klubunun ölümdən sonrakı qeydləri", "Oliver Tvistin macəraları", "Nikolas Niklbinin həyatı və macəraları", "Antikvar dükanı", "Barnebi Rac", "Martin Çezlvitin həyatı və macəraları", "Dombi və oğlu", "Devid Kopperfild" və s. kimi möhtəşəm əsərlər bəxş etmişdir.

Bu il böyük yazıçının anadan olmasının 205 ili tamam olur. Bu əlamətdar tarix ölkəmizdə - mədəniyyət, təhsil müəssisələrində, o cümlədən, kitabxanalarda da qeyd olunacaq. F.Köçərli adına Respublika Uşaq Kitabxanası da bu yubileylə bağlı metodik vəsait hazırlamışdır.

## Həyat və yaradıcılığı

Çarlz Con Haffem Dikkens 7 fevral 1812-ci ildə Böyük Britaniyanın Portsmut şəhəri yaxınlığındakı Lendportda dünyaya gəlmişdir. Gələcək yazıçının kifayət qədər imkanlı məmur olan atası gözlənilmədən müflis olmuş, sonra borclarına görə həbs edilmiş və ailə üzvləri çətinliklərlə üzləşmişdir. Buna görə də Çarlz fabrikdə işləmək məcburiyyətində qalmişdır...

Həyatının bu dövründə qarşılaşdığı çətinliklər Dikkensin yaradıcılığında öz əksini bariz şəkildə göstərir. Yoxsulluq, sosial ədalətsizlik, uşaq əməyi, hər şeyə rəğmən namuslu həyata rəğbət onun əsərlərinin əsas qayəsini təşkil edir. Ç. Dikkensin əsərləri əsl ingilis yumoru ilə yoğrulmuşdur.

Yazmağa reportyor kimi başlayan gənc Çarlz tezliklə "Boz" təxəllüsü ilə "Bozun oçerkləri"ni çap etdirir. Bundan sonra onun böyük ədəbiyyata yolu açılır. Tezliklə onun "Pikvik klubunun ölümdən sonrakı qeydləri", daha sonra "Oliver Tvistin macəraları" və "Nikolas Niklbinin həyatı və macəraları" əsərləri oxuculara təqdim olunur. Bu əsərlər Dikkensə çox böyük şöhrət gətirir. Şöhrətdən ilhamlanan Dikkens özünü "Təkrarsız" adlandırır. Əslində buna onun haqqı da var idi. O, elə bir şöhrət qazanmışdı, o qədər sevilirdi ki, bir dəfə kütlə onun paltosundan bir parça qopara bilmək üçün əyin-başını tikə-tikə etmişdi.

Amerikaya səfər edən Dikkens burada da İngiltərədəki kimi coşğunluqla qarşılanır. Yazıçı orada "Martin Çezlvitin həyatı və macəraları" əsərini qələmə alır. O, şöhrətli, varlı və cəmiyyətdə nüfuza malik bir insana çevrilir. Dikkens yazıçı olmaqla yanaşı, çox istedadlı bədii qiraət ustası idi. Onun öz əsərlərindən parçalar oxuduğu çıxışlarının çox böyük pərəstişkar kütləsi var idi. Lakin həddindən artıq gərgin iş yazıçının səhhətinə mənfi təsir göstərirdi.

Çarlz Dikkens 9 iyun 1870-ci ildə, əlli səkkiz yaşında, beyninə qansızmasından vəfat etmişdir. Ölümündən sonra Dikkensin 93 milyon funt-sterlinq varidatı miras qalmışdı. Bu, İngiltərə kraliçasının şəxsi varidatından da çox idi.

Böyük yazıçı müəyyən qədər avtobioqrafik olan “Devid Kopperfild”, “Antikvar dükanı”, “Dombi və oğlu”, “Soyuq ev”, “Məşəqqətli dövrlər”, “Balaca Dorrit”, “İki şəhər haqqında povest”, “Böyük ümidlər” və s. əsərlərini də qələmə almışdır.

Bənzərsiz yumorist, humanist, xalq kütlələrinin hüquqlarının yorulmaz müdafiəçisi olan Çarlz Dikkens uşaqlara və uşaqlığa münasibətində də əvəzolunmazdır. Onun “Oliver Tvistin macəraları” əsərinin çapından sonra cəmiyyətdə uşaq əməyi və küçə uşaqlarının hüquqsuz vəziyyətilə bağlı qızğın mübahisələr başlamışdır. Dikkens üçün uşaqlıq, sadəcə yaş dövrü deyil, eyni zamanda insaniliyin mühüm elementi olmuşdur. O, hesab edirdi ki, yaxşı insanda “uşaqlıq”dan nələrsə qalmalıdır. Yazıçı özünün ən yaxşı və sevimli qəhrəmanlarında bu “uşaqlıq” keyfiyyətlərini əks etdirirdi: cənab Pikvikin, kapitan Kattlın, Tutsun uşaq məsumluğu, Pol və Florens Dombinin uşaq səmimiyyəti və təbiiliyi, Devidin uşaqlara xas müşahidə qabiliyyəti...

Dikkens o yazıçılardandır ki, onun əsərləri insana yaşamağa, sevinməyə və mübarizə aparmağa kömək edir.

Çarlz Dikkensin xatirəsi ilə bağlı aşağıdakı işlər görülmüşdür:

- Merkurinin krateri yazıçının şərəfinə onun adı ilə adlandırılmışdır;
- 1993-2000-ci illərdə Böyük Britaniyada dövriyyəyə buraxılan 10 funtluq pulların üzərində yazıçının portreti əks olunmuşdur;
- Londonda Çarlz Dikkensin ev-muzeyi fəaliyyət göstərir;
- Amerikada, Rusiyada və Avstraliyada yazıçıya heykəl qoyulmuşdur;
- Yazıçı öz vəsiyyətnaməsində ona heykəl qoyulmasını istəmədiyini bildirsə də, 2012-ci ildə Portsmutun baş meydanında Çarlz Dikkensin heykəlinin qoyulması qərara alınmışdır. Heykəlin açılışı 9 iyun 2013-cü ildə olmuşdur.

Çarlz Dikkensin 200 illik yubileyi zamanı Böyük Britaniyanın nəhəng “Penguin Books” nəşriyyatının saytı tərəfindən oxucular

arasında yazıçının hansı personajının daha populyar olması ilə bağlı sorğu keçirilmişdir. Sorğu nəticəsində birinci yeri “Milad nəğməsi” əsərinin qəhrəmanı Ebinizer Skruc tutmuşdur. Skrucdan sonrakı yerləri “Böyük ümidlər” əsərindən tanıdığımız miss Xevişem, “İki şəhər haqqında povest”dən Sidney Karton, “Oliver Tvist” əsərindən Artful Docer ləqəbli oğru Cek Daukins, mənfi qəhrəman Fecin və zavallı Nensi bölüşmüşlər. Çox maraqlıdır ki, Oliver Tvist 11-ci yeri tutmuşdur. Sorğuda çox maraqlı bir məqam da o olmuşdur ki, müsbət qəhrəmanlardan yalnız bir neçəsi ilk onluğa düşə bilmişlər: “Böyük ümidlər” əsərindən Pip və Co Qardcerlər, “Devid Koppervild” əsərindən Betsi Trotvud.

## II Bölmə
## Yubiley tədbirlərinin keçirilməsi

Dünya ədəbiyyatında özünəməxsus yeri olan, bənzərsiz əsərləri ilə neçə nəsil oxucunun sevimli yazıçısı olan Çarlz Dikkensin yubileyi çox yerdə olduğu kimi, F.Köçərli adına RUK-da da qeyd ediəcəkdir. Keçiriləcək əsas tədbirlərdən biri kitab sərgisidir. Kitab sərgisi aşağıdakı adlardan biri ilə qurula bilər: “İngilis realist nəsrinin görkəmli nümayəndəsi Çarlz Dikkens - 205”; “Azadlıq himninin coşğun ifaçısı”; “Xalqa, tərəqqiyə, xoşbəxtliyə sadiq yazıçı”; “Böyüklərin dünyasına uşaq məsumluğu ilə gülən böyük yazıçı”; “Çarlız Dikkens dünyasını kəşf etmək - onun əsərlərini oxumaqdan keçir”; “Uzun və mürəkkəb yolun yolçusu” və s.

“İngilis realist nəsrinin görkəmli nümayəndəsi Çarlz Dikkens - 205” adlı sərginin nümunəsini təqdim edirik:

1. Başlıq;
2. Çarlz Dikkensin portreti;
3. Kitablarının nümayişi;
4. Görkəmli şəxsiyyətlərin Çarlz Dikkens haqqında fikirləri.

## Görkəmli şəxsiyyətlər Çarlz Dikkens haqqında

Müasirləri Çarlz Dikkensə münasibətdə qamçı ilə döyülən, lakin xortumu sığallanırmış kimi həzz alan fili xatırladır.

**Corc Oruell,**
*ingilis yazıçısı*

Dikkensin sənəti həyat kimidir, çünki həyatın özü kimi məsuliyyətsiz və inanılmazdır.

**G. Çesterton,**
*ingilis yazıçısı*

Təhkiyəsindəki bəzi yanlışlıqlara baxmayaraq, Dikkens böyük yazıçıdır.

**V. Nabokov,**
*rus yazıçısı*

Dikkens adamlar arasındakı münasibətlərdə hər zaman insanilik uğrunda mübarizə aparmışdır. Onun hər cür ədalətsizliyə, hər cür ikiüzlülüyə qarşı qəzəb və nifrət, insana və xoşbəxtliyə böyük sevgi dolu əsərləri bu gün də dünya xalqlarına tərəqqipərvər ideallar, xoşbəxt həyat uğrunda mübarizədə kömək edir.

**V. İvaşeva,**
*rus ədəbiyyatşünası, tənqidçi*

Dikkens ən çətin sənətə, insanlara məhəbbət sənətinə son dərəcə sadiq olmuşdur.

**M. Qorki,**
*rus yazıçısı*

*Yazıçının öz müdrik kəlamlarından da istifadə etmək olar:*

Əməksevərlik hər bir işin ruhu və rifahın təminatıdır.

Elmdə və sənətdə bütün kəşflərin, texnikanın inkişafının bütün nailiyyətlərinin içərisində birinci yeri kitab çapı tutur.

Sevən ürək dünyadakı bütün müdrikliklərdən üstündür.

Ağıldan məhrum canlı insan ölüdən daha dəhşətlidir.

Yalan, açıq-aşkar və ya qeyri-müəyyən, söylənən və ya söylənməyən olmasından asılı olmayaraq, həmişə yalan olaraq qalır.

Bu dünyada elə bir təpə yoxdur ki, inadkarlıq onun zirvəsinə çıxa bilməsin.

Biz həyatda kimlərlə görüşməliyiksə, onların hansı uzaq və çətin yollardan gəlməsinə baxmayaraq, mütləq görüşəcəyik. Bizim onlarla və onların bizimlə necə davranacağı da eləcə.

Elə yalanlar var ki, insanlar onlarla sanki şəffaf qanadlarla göyə qalxırlar. Elə soyuq, acı həqiqətlər də var ki, insanı qurğuşun zəncirlərlə yerə bərkidir.

Günləri uzatmaq üçün gecələrdən heç olmasa bir-iki saat oğurlamaq lazımdır.

İnsan başqalarına kamilləşməkdə kömək etmirsə, özü həqiqətən kamilləşə bilməz.

Həyat bizə onu son dəqiqəyə qədər cəsarətlə qorumaq şərti ilə verilmişdir.

## Kitab sərgisi

















Kitabxanada Çarlz Dikkenslə bağlı ədəbi-bədii gecənin keçirilməsi də çox məqsədəuyğun olar. Tədbir üçün yazıçının portreti, həyat və yaradıcılığı haqqında slayd və kitablarının sərgisi hazırlanmalıdır. Bu tədbir zamanı, oxuculara yazıçı haqqında qısa müddət ərzində dolğun məlumatın verilməsi əsas məqsəd olmalıdır.

**I aparıcı: -** Böyük ingilis yazıçısı, XIX əsr realist nəsrinin ən görkəmli nümayəndələrindən biri, 100-dən çox əsərin müəllifi Çarlz Con Haffem Dikkens 7 fevral 1812-ci ildə Böyük Britaniyanın Portsmut şəhəri yaxınlığındakı Lendportda anadan olub. O, məmur olan Con Dikkensin və Elizabet Dikkensin (Barrou) səkkiz uşağından ikincisi idi. Onun atası Kral donanmasının hərbi-dəniz bazasında xidmət edirdi. İşi ilə bağlı 1817-ci ildə ailəsi ilə birlikdə Çatemə köçür. Balaca Çarlz ilk dəfə burada məktəbə gedir. Lakin bir müddət sonra ailə yenidən Londona köçməli olur. Çarlz isə Çatemdə təhsilini davam etdirir. London həyatı Dikkenslər ailəsinin tezliklə müflis olmasına gətirib çıxarır. Nəticədə Çarlzın atası borclarına görə həbs edilir. Ailə çətinliklərlə üzləşir və 12 yaşlı Çarlz fabrikdə işləməyə məcbur olur.

**II aparıcı:** - Yazıçı ömrünün çətin, ağır günlərini ömrü boyu unutmur, məhz həmin illərdə o, həyatın ağır, məşəqqətli üzünü görür. Lakin tezliklə tale yenidən Dikkenslər ailəsinin üzünə gülür. Çarlzın atası ona qalan mirasla borclarını qaytarır. Ailə yenidən əvvəlki sakit həyatına qayıdır. Stenoqrafiyanı öyrənən Dikkens reportyor işinə başlayır. Reportyor kimi bir neçə yazısı dərc olunan kimi Dikkensin imzası oxucular arasında tanınır. Gənc Çarlz başa düşür ki, onun gələcək həyatı ədəbiyyatadır.

**I aparıcı:** - 1836-cı ildə onun "Boz" ləqəbi ilə "Bozun oçerkləri" adlı yazıları çap olunur. Bu oçerklər onu oxuculara daha da tanıdır. Lakin Dikkensə böyük şöhrəti 1836-1837-ci illərdə işıq üzü görən "Pikvik klubunun ölümdən sonrakı qeydləri" və 1837-1839-cu illərdə çap olunan "Oliver Tvistin macəraları" əsərləri gətirir. Tezliklə o, İngiltərənin ən məşhur yazıçılarından birinə çevrilir.

**II aparıcı:** - Çarlz Dikkens 1836-cı ildə Ketrin Tomson Hoqartla evlənir. Onların yeddi oğlu və üç qızı dünyaya gəlir. Dikkens artıq arzu etdiyi hər şeyə nail olmuşdu: məşhur yazıçı, maddi cəhətdən təmin olunmuş, cəmiyyətdə hörmətə malik insan, ailə başçısı, ata... Onun əsərləri nəinki İngiltərədə, onun hüdudlarından kənarda da böyük şöhrət tapmışdı. Bu dövrdə Amerikaya səfər edən yazıçı burada da böyük coşğunluqla qarşılanır. Amerikaya səfərindən sonra o, 1843-cü ildə "Martin Çezlvit" əsərini qələmə alır. Amerikalıları parodiya edən bu əsər onlarda güclü etiraza səbəb olur.

**I aparıcı:** - Çox gərgin işləyən Dikkens biri-birinin ardınca "Nikolas Niklbi" (1838-1839), "Antikvar dükanı" (1840-1841), "Barnebi Rac" (1841), "Milad povestləri" (1843-1848), "Dombi və oğlu" (1846-1848), "Devid Kopperfild" (1849-1950), "Soyuq ev" (1852-1853), "Ağır dövrlər" (1854), "Balaca Dorrit" (1855-1857), "İki şəhər haqqında povest" (1859), "Böyük ümidlər" (1860-1861), "Bizim ümumi dostumuz" (1864-1865) əsərlərini qələmə alır. Yazıçı sonuncu "Edvin Drudun sirri" əsərini tamamlaya bilmir. Gərgin zehni iş, oxucular qarşısında mütəmadi olaraq əsərlərinin bədii qiraəti ilə çıxış etməsi Çarlz Dikkensin səhhətinə mənfi təsir göstərir. Böyük

yazıçı 9 iyun 1870-ci ildə əlli səkkiz yaşında beyninə qan sızmasından vəfat edir.

**II aparıcı:** - İngilis və dünya ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri, realist nəsrin böyük ustası, humanist yazıçı Çarlz Dikkens dünya ədəbiyyatında xüsusi yeri olan, illər, əsrlər keçsə də əsərləri heç vaxt dəyərini itirməyən bir sənətkardır. Çarlz Dikkens Şekspir, Höte, Tolstoy, Dostoyevski kimi dahilərlə bir cərgədə dayanır. Onun doğum günü bütün ədəbiyyatsevərlər üçün bir bayramdır. Çarlz Dikkensin insanpərvər sənəti bütün bəşəriyyətin sərvətidir.

**I aparıcı:** - Böyük yazıçı Azərbaycanda da kifayət qədər tanınır və sevilir. Britaniya Şurası (British Counsil təşkilatı) dahi ingilis yazıçısı Çarlz Dikkensin anadan olmasının 200 illik yubileyi münasibətilə 2012-ci ili Azərbaycan Respublikasında "Dikkens ili" elan etmişdir. "Dikkens ili" çərçivəsində bir sıra tədbirlər və layihələr həyata keçirilmişdir. Dikkensin anadan olmasının 200 illik yubileyinin ölkəmizdə keçirilməsinin əsas məqsədi ədibin yaradıcılıq irsi ilə həmvətənlərimizi daha yaxından tanış etmək, yeni nəsli ingilis dilinin öyrənilməsinə daha dərindən yönəltmək, keçirilən tədbirlərə geniş auditoriyanı cəlb etmək və məlumatlandırmaq olmuşdur.

Tədbirin bədii hissəsində balaca oxuculardan biri Çarlz Dikkensin "Oliver Tvistin macəraları" əsərinin qəhrəmanı Oliver Tvistin obrazında tədbir iştirakçılarının qarşısına çıxır və əsərdən məşhur deyimləri söyləyir.

**Oliver Tvist:**

- Həqiqətən də bizim hər birimizə çox şey verilmişdir ki, biz onlara görə minnətdar olaq. Təəssüf ki, biz bunu başa düşmürük!;
- Göz yaşları ağciyərləri təmizləyir, gözləri itiləşdirir və əsəbləri sakitləşdirir – odur ki, ağlayanda ürəkdən ağlayın!
- Gecikmiş peşmançılıqdan daha qəddar peşmançılıq yoxdur;

- Elə kitablar var ki, onların ən yaxşı cəhəti yalnız cildləridir.
- Mən belə qərara gəldim ki, əgər mənim dünyam sizin ola bilmirsə, mən sizin dünyanızı özümünkü edəcəyəm.
- İnsan qəlbində başqalarını zəhərləmək ehtirası çox dərindir.
- Ruh və ya qəlb yoxsulların nəyinə lazımdır? Bədənlərinə dəymirik, bu kifayətdir.
- Dostluğun alınmadığı yerdə çox zaman nifrət özünə yol tapır.
- Biz yalnız həyatda passiv tamaşaçılar deyil, aktyorlarıq, önəmli fərq də məhz bundadır.
- Ölüm, yanğın və qarət hamını eyniləşdirir.
- Bizim dünyamız – böyük məyusluqlar dünyasıdır və biz çox zaman ən çox əzizlədiyimiz, bizim təbiətimizə böyük dəyər qatan ümidlərimizdə məyusluq yaşayırıq.

Çarlz Dikkensin anadan olmasının 205 illiyi münasibətilə kitabxanalarda “dəyirmi masa”nın keçirilməsi də faydalı olardı. Belə tədbirlərə xarici ədəbiyyat fakültələrində oxuyan tələbələri dəvət etmək çox məqsədəuyğundur. Tədbirin keçiriləcəyi zalda yazıçının böyük portretinin asılması, kitablarının sərgisinin təşkili vacibdir. “Dəyirmi masa”nı kitabxananın müdiriyyəti və ya təcrübəli kitabxanaçılarından biri açaraq Çarlz Dikkensin həyat və yaradıcılığı, həmçinin tədbirin məqsədi haqqında qısa məlumat verir. Daha sonra tələbələr Çarlz Dikkensin yaradıcılığı ətrafında diskussiya, fikir mübadiləsi aparırlar.

**I oxucu:** - Çarlz Dikkens dünya ədəbiyyatına, hər şeydən öncə, görkəmli yumorist və satirik kimi daxil olmuşdur. Erkən yaşlarından yoxsulluq və ehtiyac içərisində yaşayan gələcək yazıçı, ciddi təhsil almağa imkan tapmamışdı. Stenoqrafiyanı öyrənən gənc Çarlz əvvəlcə parlamentdə işə düzəlir və daha sonra onda oçerklər yazmaq həvəsi yaranır. Bu kiçik oçerklər qəzetdə dərc olunur və bununla da uğur onun üzünə gülməyə başlayır. “Pikvik klubu”nun

daimi sakinləri haqqında yazılmış komik əhvalatlar hər ay qəzetdə dərc olunur və müəllifə böyük populyarlıq qazandırır. Beləcə, cənab Pikvik - komik mütəfəkkir və uğursuz, lakin xeyirxah insan surəti yaranır və sonradan Dikkensin məşhur "Pikvik klubunun ölümdən sonrakı qeydləri" (1837) romanının qəhrəmanına çevrilir.

**II oxucu:** - Bir ildən sonra gənc yazıçının yeni romanı – "Oliver Tvistin macəraları" (1838) işıq üzü görür. Kimsəsizlər evində dünyaya göz açan və London xarabalaqlarında sərgərdan həyat sürməyə məhkum olan balaca Oliver Tvist haqqında əhvalatlar oxucuların qəlbini riqqətə gətirir. Oliver özü də istəmədən soyğunçular dəstəsinin cinayətlərinə cəlb olunur, çox çətinliklərdən, sınaqlardan çıxır və sonda onu bütün bunlardan xilas edən xeyirxah insanlara rast gəlir.

Dikkens həm də xoşbəxt sonluqlar üzrə usta bir qələm sahibi olmuşdur.

**III oxucu:** - Çarlz Dikkens alçaldılmış uşaqlıq mövzusunu "Nikolas Niklbinin həyat və yaradıcılığı" romanında da davam etdirir. Bu dəhşətli tarixçə də xoş sonluqla bitir. Çarlz Dikkensin bir yazıçı kimi əsas fərqi ondan ibarət idi ki, o, dünyanı olduğu kimi qəbul edirdi, heç kimlə mübarizə aparmırdı, eyni zamanda hər şeyin xoşbəxt sonluqla bitəcəyinə, ədalətin təntənəsinə inanırdı.

**I oxucu:** - Çarlz Dikkensin 25 yaşı olduğu zaman o, artıq istedadlı romançı kimi şöhrət qazanmışdı. Uşaq vaxtı yaşadığı sıxıntılar onda güclü iradə formalaşdırmışdı və gənc Çarlz öz qələminin bənzərsiz olmasına inanırdı. Bu cür düşünməyə onun haqqı vardı. Belə ki, Dikkens hansı işin qulpundan yapışırdısa, onu çox gözəl həyata keçirirdi: stenoqrafiyanı öyrəndiyi zaman ən peşəkar stenoqrafist olur, məhkəmə müxbiri işlədiyi vaxt bütün məhkəmə işini dərindən öyrənir, jurnalistlik etdiyi zaman bütün ölkədə seçki kampaniyasını işıqlandırır, sonralar isə özünü ən yaxşı naşir kimi göstərir.

**II oxucu:** - 1842-ci ildə Dikkensin yaradıcılığında yeni dövr başlayır. Yazıçı ətrafda baş verənlərə daha sərt baxışla yanaşır. O, artıq otuz yaşında istənilən namuslu gəncin arzu edəcəyi hər şeyə nail

olmuşdu. Lakin onun əsərlərində ümidlərin aldadıcı, ideallların əlçatmaz olması haqqında tutqun hissiyyat özünü biruzə verirdi. Bu dövrdə o, Amerikaya səfər edir. O, yeni dünyada onu İngiltərədə qıcıqlandırmağa başlayan ənənələrdən və irsi çatışmazlıqlardan azad cəmiyyət tapacağını ümid edirdi. Lakin o, beynəlxalq müəllif hüquqlarından danışmağa başlayan kimi, mətbuat onun üzərinə hücuma keçir. Dikkens Amerikanı sevmir və öz məyusluğunu "Martin Çezlvitin həyatı və macəraları" (1844), "Dombi və oğlu" (1848) əsərlərində ifadə edir.

**III oxucu:** - Çarlz Dikkens öz yaradıcılığının zirvəsində avtobioqrafik "Devid Kopperfild" (1850) və "Böyük ümidlər" (1861) əsərlərini qələmə alır. Yazıçı ümumilikdə 15 roman, bir neçə oçerk, povest və hekayələr kitabı və bir sıra pyeslər yazmışdır. Həyatının sonuna yaxın onun xarakterində öz vəziyyətindən məmnunsuzluq özünü göstərirdi. Halbuki Dikkens Valter Skottdan sonra məhz yazıçılıqla böyük sərvət toplamış və hədsiz populyarlıq qazanmış yeganə insan idi. O, çox narahat, dəyişikliklərə meylli olmuşdu. Bütün bunların əsas səbəbi yazıçının həm psixoloji, həm də emosional olaraq hədsiz yorulması idi. Lakin Çarlz Dikkens dayanmadan işləyir, həm yazır, həm də əsərlərinin bədii qiraəti ilə məşğul olurdu. Onun sonuncu "Edvin Drudun sirri" əsəri tamamlanmamışdır.

8 iyun 1870-ci ildə Çarlız Dikkensin beyninə qan sızır. Ertəsi gün böyük yazıçı gözlərini əbədi yumur.

Kitabxanada keçirilən daha bir faydalı tədbir icmaldır. İcmal zamanı kitabxanaçı yazıçının əsərlərindən birinin məzmunu haqqında iştirakçılara ətraflı məlumat verir. Tədbir keçirilən zalda yazıçının kitablarından ibarət kitab sərgisinin qurulması vacibdir.

**Kitabxanaçı:** - Hörmətli tədbir iştirakçıları! Bu gün sizlərə görkəmli ingilis yazıçısı Çarlz Dikkensin "Oliver Tvistin macəraları" əsəri haqqında məlumat verəcəyəm. Bu əsər yazıçının qələmə aldığı ikinci romandır. Əsər həm də onunla maraqlıdır ki, ingilis ədəbiyyatında uşaq baş qəhrəmanın olduğu ilk romandır.

XVI əsrdə bir çox Avropa ölkələrində, o cümlədən İngiltərədə ehtiyacı olanların, xırda cinayətkarların və dilənçilərin təcrid olunması və əməyə cəlb olunması üçün işçi evləri fəaliyyət göstərirdi. Balaca Oliver Tvist də belə evlərdən birində dünyaya göz açır. Oliverin anası doğumdan dərhal sonra vəfat edir. O, yetimxanada çox böyük məhrumiyyətlər içərisində böyüyür. Bir gün aclıq çəkən yaşıdları Oliveri əlavə yemək istəməyə məcbur edirlər. Yetimxananın rəhbərliyi bu inadkarlığına görə onu tabut ustasının yanında işləməyə göndərir. Balaca Oliver burada baş usta köməkçisi tərəfindən təhqirlərə məruz qalır. Usta köməkçisi ilə dava edən Oliver Londona qaçır. O, burada "Zirək Plut" ləqəbli yeniyetmə cibgir Cek Doukinsin dəstəsinə düşür. Cinayətkarların yuvasına hiyləgər və məkrli yəhudi Fecin başçılıq edir. Soyuqqanlı qatil və quldur Bill Sayks bir dəfə bura baş çəkir. Onun on yeddi yaşlı rəfiqəsi Nensi Oliverin simasında ruhən özünə doğma insanı görür və ona qarşı xeyirxah və rəhmli davranmağa başlayır. Cinayətkarlar Oliverə cibgirliyi öyrətməyi planlaşdırırlar. Lakin baş tutmayan qarətdən sonra Oliver xeyirxah centlmenin – cənab Braunlounun evinə düşür. Cənab Braunlou vaxt keçdikcə Oliverin öz dostunun oğlu olmasından şübhələnməyə başlayır. Sayks və Nensi Oliveri qarətdə iştirak etməsi üçün yeraltı cinayətkar aləmə geri qaytarırlar. Məlum olur ki, Fecinin arxasında Oliveri mirasdan məhrum etmək istəyən ögey qardaşı Monks dayanır. Cinayətkarların növbəti uğursuzluğundan sonra Oliver kitabın sonunda xalası olduğu məlum olan miss Roz Meylinin evinə düşür. Nensi belə bir xəbər gətirir ki, Monks və Fecin Oliveri oğurlamaq və ya öldürmək ümidilə yaşayırlar.

Roz Meyli bu xəbərlə cənab Braunlounun evinə gedir və onun köməyi ilə bu vəziyyəti çözməyə çalışır. Sonra Oliver cənab Braunlounun evinə qayıdır. Nensinin əməlindən xəbərdar olan Sayks qəzəblənərək bədbəxt qızı öldürür, lakin tezliklə özü də həlak olur. Monks öz çirkin sirrini açmalı və miras iddialarından əl çəkməli olur. Amerikaya köçüb gedən Monks orada həbsxanada ölür. Fecin asılaraq edam olunur, Oliver isə öz xilaskarı cənab Braunlounun evində xoşbəxt ömür sürür.

“Oliver Tvistin macəraları” ingilis cəmiyyətini, aristokratik London malikanələrindən tutmuş ucqar sığınacaqlara qədər və onları birləşdirən əlaqəni təsvir edir. Müəllifin əsas tənqid hədəfi işçi evləri və uşaq əməyi, hökumət dairələrinin uşaqların cinayətkarlığa cəlb edilməsinə biganə münasibətidir. Bütün bunlarla yanaşı, “Oliver Tvistin macəraları” romanında romantik şərtiliklərin (Oliver və digər müsbət obrazların mələk kimi məsum simasının olması, cinayətkarların eybəcər üzü və s. kimi) və klassik ingilis romanı üçün ənənəvi həppi end-i təmin edən qeyri-adi təsadüflərin (qarətin baş tutmamasından sonra Oliverin öz qohumlarının evinə düşməsi) bolluğu vardır. Bütün bunlar kitabı əvvəlki dövrlərin macəra romanları ilə müəyyən qədər yaxınlaşdırır.

“Oliver Tvistin macəraları” romanı 1837-ci ilin fevralından 1839-cu ilin martına qədər “Bentleys Miscellany” ədəbi jurnalında illüstrasiyalarla nəşr olunmuşdur. Roman 1846-cı ildə Dikkens tərəfindən yanvardan oktyabra qədər nəşr edilən xüsusi buraxılışlarda da dərc olunmuşdur.

“Oliver Tvistin macəraları” romanı ilk dəfə 1922-ci ildə səssiz kino janrında ekranlaşdırılmışdır. Sonrakı illərdə də əsər cizgi filmi, teleserial, kinofilm, sənədli film şəklində ekranlaşdırılmış və tamaşaya qoyulmuşdur.

Kitabxanada uşaqlar arasında Çarlz Dikkensin romanlarına çəkilmiş rəsm əsərlərinin müsabiqəsini təşkil etmək çox faydalı ola bilər. Belə ki, bu müsabiqə həm istedadların üzə çıxarılması, həm də Dikkens əsərlərinin mütaliəsinə həvəs oyadılması baxımından məqsədəuyğundur.

Çarlz Dikkensin yaradıcılığı ilə bağlı kitabxanada keçiriləcək daha bir maraqlı tədbir də bədii qiraət ola bilər. Bu tədbiri çox maraqlı üslubda keçirmək üçün ənənəvi ingilis çayiçmə mərasimi şəklində təşkil etmək olar. Tədbirdə iştirakçılar növbə ilə Dikkens əsərlərindən hissələrin bədii qiraəti ilə çıxış edirlər.

## Ədəbiyyat siyahısı

*Azərbaycan dilində*

**Dikkens, Ç.** Oliver Tvistin macəraları : roman / tərc. ed. Ə.Ağayev. - Bakı : Çaşıoğlu, 2005. - 456 s.

**Dikkens, Ç.** Oliver Tvistin macəraları : roman / uşaql. üç. işl. İ.B.Umudlu ; rəs. N.Əhədov, E.Cabbarov. - Bakı : Altun Kitab, 2012. - 128 s.

**Dikkens, Ç.** Devid Kopperfild / uşaql. üç. işl. İ.B.Umudlu ; red. İ.İlyaslı ; rəs. E.Cabbarov. - Bakı : Altun Kitab, 2014. - 128 s.

*Rus dilində*

**Диккенс, Ч.** Большие надежды : Роман / пер. с англ. М.Лорие. - М. : АСТ, 2014. - 543, [1] с. - (Зарубежная классика).

**Диккенс, Ч.** Приключения Оливера Твиста : Роман / пер. с англ. А.В.Кривцова. - М. : АСТ, 2013. - 477, [3] с. - (Зарубежная классика).

# “Böyüklərin dünyasına uşaq məsumluğu ilə gülən yazıçı”

## (metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 26
Çapa imzalanmışdır: 05.02.2017
Tirajı:100
Pulsuz